# Sosial Tədqiqatlar Mərkəzi

HESABAT

5 il

2019-2023




RƏYİNİZ İŞİMİZDİR!

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# Sosial Tədqiqatlar Mərkəzi

5 *il*

# HESABAT

2019 – 2023

Bakı - 2024

"Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir".

"Bizim apardığımız kadr və struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir. Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır".

"Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir... Sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır... Təbii ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



**Redaksiya Şurası:**
Zahid ORUC
*STM İdarə Heyətinin sədri*

Tahirə Allahyarova
*STM İdarə Heyətinin üzvü*

**Redaktor:**
Aqşin Məmmədov

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1073, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.
Sosial Tədqiqatlar Mərkəzi

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb: 12.03.2024
Fiziki çap vərəqi: 8
Sifariş: 12
Tiraj: 1000

"MM-S" müəssisəsinin mətbəəsində çap edilmişdir.
**Ünvan:** Azərbaycan Respublikası, AZ 1102, Bakı şəhəri,
Nəsimi rayonu, A.Tağızadə küçəsi, ev 13.

**Telefon:** (+994 12) 431 11 00
(+994 50) 314 09 37

© Sosial Tədqiqatlar Mərkəzi, 2024

# MÜNDƏRİCAT


STM haqqında....6

Mərkəzin məqsədi, vəzifəsi və fəaliyyət istiqamətləri....8

Sorğuların metodologiyası, keçirilmə üsulları və emalı....11

Analitik hesabat, analitik təhlil və icmal sənədləri....14

Kitab layihələri....18

STM-in nəşrləri....20

Beynəlxalq tədbirlərdə iştirak....24

Tərəfdaşlar, əməkdaşlıq  əlaqələri....26

STM mediada....29

Təlim və seminarlar, təcrübə proqramları....34

STM-in sosial media platformaları....36

Tədbirlər, görüşlər....38

Təbriklər....54

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# STM HAQQINDA



Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2019-cu il tarixli 525 nömrəli Fərmanı ilə yaradılıb.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

Mərkəz öz fəaliyyətində müstəqildir və Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, öz Nizamnaməsini, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, xarici qurumlar, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2019-cu il tarixli Fərmanı ilə Mərkəzə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən ibarət İdarə Heyəti həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2019-cu il tarixli Sərəncamı ilə Zahid Məhərrəm oğlu Oruc Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri təyin edilib.

Mərkəzin Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 12 aprel 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilib.







SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# MƏRKƏZİN MƏQSƏDİ, VƏZİFƏSİ VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

❖ Azərbaycan Respublikasında sosial tədqiqat, təhlil və proqnozlaşdırma işi ilə, habelə ictimai rəyin öyrənilməsi ilə bağlı siyasətin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;
❖ Dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasını və tendensiyalarını təhlil etmək, proaktiv yanaşma əsasında müasir informasiya texnologiyaları və innovativ üsullar vasitəsilə rəy sorğuları keçirmək, ictimai fikri öyrənmək, təhlil etmək və təkliflər vermək, elmi araşdırmalar aparmaq və bu sahədə dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;
❖ Sosialyönümlü innovativ həll üsulları, müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə, habelə internet informasiya resurslarında, sosial şəbəkələrdə aparılan çoxşaxəli fəaliyyətlə cəmiyyət-dövlət təmaslarını gücləndirmək və inkişaf etdirmək;
❖ İdarəetmə prosesinin təkmilləşdirilməsi, aparılan islahatların səmərəliliyinin artırılması məqsədilə, habelə verilən qərarların, görülən tədbirlərin mümkün təsirlərinə dair sosial tədqiqatlar aparmaq;
❖ İctimai əhəmiyyət kəsb edən müxtəlif mövzularda ictimai dinləmələr, debatlar keçirmək, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq etmək, geniş müzakirə platformaları qurmaq və onları idarə etmək;
❖ Azərbaycan Respublikasının milli maraqları ilə bağlı olan qlobal və regional prosesləri, habelə ölkədə ictimai-siyasi, sosial, elmi-mədəni sahələrdə gedən prosesləri və hadisələri təhlil etmək, iqtisadi proseslərin sosial aspektlərini öyrənmək, bu sahələrdə baş verəcək dəyişiklikləri proqnozlaşdırmaq, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərinə dair təhlillər aparmaq, nəticələrə dair qabaqlayıcı təkliflər vermək;
❖ Sosial tədqiqatlar sahəsində qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
❖ Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müvafiq struktur bölməsinə davamlı olaraq təhlil, tədqiqat və sorğuların nəticələrini, habelə Mərkəzin inkişaf istiqamətləri, strateji məqsədləri və fəaliyyət planları ilə bağlı təkliflərini təqdim etmək və s.

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# STM RƏQƏMLƏRDƏ: 2019-2023

**98**
Analitik hesabat, analitik təhlil və icmal sənədi

**648**
Arayış, tədqiqat, təhlil və təklif sənədi

**120**
Sosioloji tədqiqat-sorğu layihələri

**15**
Dövlət və özəl təşkilatlardan (beynəlxalq və yerli) sifariş əsaslı işlər

**104.397**
Respondentlərin ümumi sayı

**10**
Kitab layihəsi

**173**
Elmi məqalə

**680**
Analitik şərhlər, ekspert dəyərləndirmələri və elmi-publisistik yazılar

**165**
Elmi konfrans, vebinar, seminar və təlimlərdə iştirak

**17**
Tərəfdaşlar / Əməkdaşlıq memorandumu

**9.300+**
Mediada çıxışlar / müsahibələr

**72**
Tədbirlər / Görüşlər

**46**
Çap edilmiş hesabat və jurnallar

**1500+**
STM.az saytında yerləşdirilmiş materiallar

**600+**
STM TV-də yerləşdirilmiş videolar

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# SORĞULARIN COĞRAFİYASI
## 2019-2023



| Region | % |
|---|---|
| Şəki-Zaqatala | 6.3% |
| Gəncə-Daşkəsən | 6.2% |
| Qazax-Tovuz | 6.9% |
| Bakı | 23.4% |
| Abşeron-Xızı | 6.1% |
| Quba-Xaçmaz | 5.8% |
| Naxçıvan | 4.6% |
| Şərqi Zəngəzur | 0.0% |
| Qarabağ | 9.2% |
| Mərkəzi Aran | 7.6% |
| Lənkəran-Astara | 9.8% |
| Şirvan-Salyan | 5.4% |
| Mil-Muğan | 5.4% |
| Dağlıq Şirvan | 3.3% |

**120** | Sosioloji tədqiqat- sorğu layihələri → **112** | Yerli sorğu **8** | Beynəlxalq sorğu

**104.397** | Respondent → **280** | Keyfiyyət əsaslı tədqiqat layihələrində respondent sayı

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# SORĞULARIN METODOLOGİYASI, KEÇİRİLMƏ ÜSULLARI VƏ EMALI

Sosial Tədqiqatlar Mərkəzi Nizamnamədən irəli gələn fəaliyyət istiqamətləri üzrə kəmiyyət və keyfiyyət metodları əsasında tədqiqatlar aparır. Mərkəz tərəfindən tədqiqat layihələrinin həyata keçirilməsində peşəkar yanaşma tətbiq olunur. Sosioloji sorğular tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq, ümumilikdə ölkəni, onun müəyyən hissəsini, yaxud konkret hədəf qrupları əhatə edir.

Məlumatların toplanılmasında müxtəlif üsullardan (CATI, CAPI, CAWI, PAPI) istifadə olunur. Tədqiqat layihələrinin məqsədlərindən və məlumatların toplanılması formasından asılı olaraq, məcmudan nümunə ehtimallı seçmənin klaster, stratalaşdırılmış, sadə, sistemli və digər üsulları əsasında müəyyən edilir.

Müsahibələr və fokus qrupların təşkilində isə qeyri-təsadüfi seçmə metodu ilə müəyyən meyarlara cavab verən respondentlər seçilir.

Kompüter dəstəkli müsahibələrdə “SurveyToGo (Dooblo)” proqram təminatından istifadə olunur. Bu proqram təminatı sorğular yaratmaq, məlumatları sürətli inteqrasiya etmək, nəticələri real vaxt rejimində izləmək, GPS məlumatlarını əldə etmək kimi bir sıra üstünlüklər təqdim edir. İstənilən auditoriyadan olan respondentlərin sorğuda iştirakını təmin etmək üçün sorğu anketi sistemə eyni vaxtda müxtəlif dillərdə yüklənir.

Mərkəz tərəfindən genişmiqyaslı tədqiqatlardan əvvəl sorğu anketlərinin dizaynını sınaqdan keçirmək üçün pilot tədqiqatlar aparılır. Anketlərin sınaqdan keçirilməsinin nəticələrinə əsasən sorğu anketlərində müvafiq dəyişikliklər edilir. Sorğuların keçirilməsinə cəlb olunan sorğuçular xüsusi şərtlər əsasında seçilir. Keçirilən tədqiqatın mövzusuna uyğun sahələrdə təcrübəsi olan sorğuçular sahə işinin icrasına cəlb olunur.

Sorğuçular tərəfindən məlumatların toplanılması Sosial Tədqiqatlar Mərkəzi tərəfindən hazırlanan təlimat qaydaları əsasında aparılır. Sahə işinə başlamamışdan əvvəl sorğuçular Mərkəzin əməkdaşları tərəfindən keçirilən təlimlərdə iştirak edirlər. Təlimlərdə keçirilən sorğunun məqsədi, seçmənin aparılması prinsipləri və respondentlərə ünvanlanan suallar toplusu izah edilir. Təlimlər interaktiv formada təşkil olunur, bu zaman müsahibəçilər test sorğusu keçirir və onların fəaliyyəti qiymətləndirilir. Sahə işi davam etdiyi müddətdə sorğuçuların fəaliyyəti davamlı olaraq monitorinq edilir. Sahə işinin icrası zamanı nəzarətçilər sorğuların keyfiyyətinə nəzarət etmək üçün əraziyə səfərlər təşkil edir, eyni vaxtda proqramın icrasına uzaqdan nəzarət edilir.

Məlumatların emalı üsulu tədqiqat layihəsinin məqsədlərinə uyğun olaraq müəyyənləşir. Məlumatların emalında "SPSS", "R-Studio", "Nvivo" və digər proqram




Şuşa
İctimai rəyin öyrənilməsi



təminatlarından istifadə olunur. "Nvivo" keyfiyyətli məlumatların təhlili üçün xüsusi olaraq hazırlanmış mürəkkəb kompüter proqram paketidir və müsahibələrin, hədəf qrup müzakirələrinin təhlilində səmərəli nəticə əldə etməyə imkan verir. Kəmiyyət tədqiqatlarında istifadə olunan "R-studio" və "SPSS" proqram təminatları isə məlumat bazasının statistik təhlilinə imkan yaradır.

Tədqiqatların aparılmasında etik prinsiplərə ciddi əməl olunur. Respondentlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları, sorğunun könüllü iştirak əsasında aparıldığı barədə tam məlumat verilir. Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunur, anonimlik təmin edilir.

Toplanılan məlumatlar əsasında məlumat bazası yaradılır və Mərkəzin daxili serverində saxlanılır. Mərkəz tərəfindən məlumat bazasının təhlükəsizliyinə, məxfiliyinə zəmanət verilir.














SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# ANALİTİK HESABAT, ANALİTİK TƏHLİL VƏ İCMAL SƏNƏDLƏRİ

2019-2023-cü illər ərzində 98 analitik hesabat, analitik təhlil və icmal sənədi, həmçinin 648 arayış, tədqiqat, siyasət, mövqe, təhlil və təklif sənədi hazırlanmışdır.

- “Prezidentin sosial və kadr islahatları ictimai rəydə” (2019)
- “Bələdiyyə 20/20: yerliözünüidarəetmə ictimai rəydə” (2019)
- “Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər” (2019)
- “Azərbaycanda sosial şəbəkələr və cəmiyyət” (2019)
- “Azərbaycanın media barometri” (2019)
- “Orta məktəb dərsliklərinin vəziyyəti ictimai rəydə” (2019)
- “Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri” (2020)
- “Azərbaycanda islam” (2020)
- “Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə” (2020)
- “Azərbaycanda yaşlılar: qayğı və rifah” (2020)
- “Azərbaycanda COVID-19 pandemiyasının qadın və kişilərin həyatına təsirinin sürətli gender qiymətləndirməsi” / Aİ, UNFPA, UN Women təşkilatı ilə əməkdaşlıq çərçivəsində/ (2020)
- “Azərbaycanda əhalinin cinayət əməlindən zərər çəkməsi və aidiyyəti qurumlara müraciəti. Viktimoloji tədqiqat-İctimai rəy sorğusu” (2020)
- “Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə” (2020)
- “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Vətən müharibəsindən əvvəl və















sonra" (2020)

- "Azərbaycan Respublikasının Dövlət Bayrağına münasibət ictimai rəydə" (2020)
- "Vətən müharibəsi dövründə Ali Baş Komandanın fəaliyyəti ictimai rəydə" (2020)
- "2020-ci ilin qiymətləndirilməsi və növbəti ildən gözləntilər" (2020)
- "COVID-19 xəstəliyi əleyhinə vaksinasiyaya ictimai münasibət" (2021)
- "Uşaq hüquqlarının təmin edilməsinə dair respublika üzrə 2018-ci və 2019-cu illərin məlumatları əsasında analitik hesabat" /Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq çərçivəsində/ (2021)
- "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" /Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq çərçivəsində/ (2021)
- "Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil" / Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq çərçivəsində/ (2021)
- "Müasir dövlət ailə siyasəti: probleme familistik araşdırmalar kontekstindən baxış" / Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq çərçivəsində/ (2021)
- "Yerli icra hakimiyyəti başçıları: beynəlxalq və milli təcrübədə" (2021)
- "Qlobal "araşdırmaçı jurnalist və insan hüquqları" şəbəkəsi: Azərbaycana qarşı fəaliyyətində erməni faktoru. "Pandora sənədləri" üzərindən təhlil" (2021)
- "İşğaldan azad olunmuş ərazilərə könüllü qayıdış və yenidən məskunlaşma: məcburi köçkünlərlə niyyət sorğusu" (2021)
- "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi / BMT-nin Əhali Fondu və BMT-nin İnkişaf Proqramı (UNDP Azerbaijan) ilə birgə əməkdaşlıq çərçivəsində / (2021)
- "Azərbaycanda COVID-19 pandemiyasının qadın və kişilərin həyatına təsirinin sürətli gender qiymətləndirməsi" layihəsi /Avropa İttifaqı, UN Women və BMT-nin Əhali Fondu ilə birgə əməkdaşlıq çərçivəsində/ (2021)

❑ “Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri. Kibercinayətlərə və onlayn təhlükəsizliyə ictimai rəyin münasibətinin regional kəmiyyət və keyfiyyət əsaslı təhlili”. Oktyabr 2021 - yanvar 2022. Aİ, Avropa Şurası və Sosial Tədqiqatlar Mərkəzinin birgə layihəsi: Cybercrime and Cybersecurity Barometer in Azerbaijan. Regional Quantitative and Qualitative Analysis of the Attitude Towards Cybercrime and Online Security (October 2021 - January 2022) / Azərbaycan və ingilis dillərində/
❑ “Sosial Tədqiqatlar Mərkəzi – 3 il (2019-2021)”. Hesabat (2022)
❑ “Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlər üzrə keyfiyyət və məmnunluğun qiymətləndirilməsinə dair” / “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın Tədbirlər Planının 4.9-cu yarımbəndinə əsasən hazırlanmışdır/ (2022)
❑ “Sosial-iqtisadi rifah: qayğı və gözləntilər” (2022)
❑ “Prezidentin yeni hakimiyyət quruculuğu: islahatlar, çağırışlar, ictimai rəy” (2022)
❑ “Xankəndi şəhərində məskunlaşan ermənilərlə rəy sorğusu” (2022)
❑ “Azərbaycanda hibrid və elektrik mühərrikli nəqliyyat vasitələrinin istifadəsinə ictimai baxış” /Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının “Sərhəddə ticarət” işçi qrupu ilə əməkdaşlıq çərçivəsində/ (2022)
❑ Korrupsiyaya qarşı mübarizənin effektivliyinin artırılması imkanları: ictimai nəzarət və şəffaflıq mühitinin dəyərləndirilməsi (2022)
❑ “Azərbaycan gəncliyinin barometri: dəyərləri, həyat tərzi və ictimai-siyasi aktivliyi” (2023)
❑ “Türkiyədə prezident seçkiləri / 2023 Azərbaycan ictimai rəyində” (2023)
❑ “Dezinformasiyaya qarşı mübarizə: ifşa detektoru” (2023)
❑ “Azərbaycanda islam: dini vəziyyət, dinamika, tendensiya və perspektivlər” /Mənəvi Dəyərlərin Təbliği Fondu, Sosial Tədqiqatlar









Mərkəzi/ (2023)

- "Türk Barometri 2023: Türk dövlətlərində kimlik və mədəniyyətlərin qarşılıqlı əlaqələri, təsirləri" (Turkic Barometer 2023: Research on Identity and Culture Interaction in the Turkic States). // Türk Akademiyası, Qazi Universiteti, Türk Dünyası Araşdırma Mərkəzinin və STM-in birgə təşkil etdiyi sorğu-tədqiqatın Azərbaycan üzrə nəticələri (2023)
- "Avropa İttifaqı (Aİ) Şurasının Ermənistanda Mülki Missiyası (EUMA): hərbi-siyasi, hüquqi aspektləri, Azərbaycan üçün mümkün təhdidləri". Konsepsiya sənədi (Concept Paper) (2023)
- "Zəngəzur dəhlizi: regional əməkdaşlıq perspektivləri və sosial-siyasi aspektləri" (2023)
- "Regional idarəetmədə struktur və xidmətlərdən məmnunluq" (2023)
- "Ermənilərlə sülh və birgəyaşayışa münasibət ictimai rəydə" (2023)
- "Alternativ fikirli şəxslərlə maarifləndirmə işinin qurulması" /Yerli icra hakimiyyəti başçılarının müavinləri (ictimai-siyasi və humanitar məsələlər üzrə) və YAP-ın rayon təşkilatlarının sədrləri ilə sorğu nəticələri əsasında (2023)
- "Azərbaycanda zəlzələ ehtimalına qarşı risklərin, ictimai davranış və mühakimənin qiymətləndirilməsi" (2023)
- "Qarabağ və regionda yaranmış vəziyyət" (2023)
- "Sosial həmrəylik" (2023)
- "Ərazi idarəetmə sistemində struktur və xidmətlər ictimai rəydə" (2023)
- "Dövlət orqanlarının (qurumlarının) kommunikasiya xətlərinin fəaliyyəti və stasionar və qaynar xətlər üzrə vətəndaş zənglərinin cavablandırılması"na dair monitorinq nəticələri (2023)
- "Siyasi elmlərin tədrisi problemləri" təhsilverənlər arasında sosioloji sorğu nəticələri (2023)
- "Azərbaycanın müasir siyasi tarixinin tədrisi məsələləri" təhsilverənlər arasında sosioloji sorğu nəticələri (2023) və s.









SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# KİTAB LAYİHƏLƏRİ

**Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 2019-2023-cü illər ərzində 10 kitab layihəsi həyata keçirilmişdir:**

- Tədqiqat metodları. Bakı: TEAS Press nəşriyyatı, 2019 /İ.Şahbazov/
- Entropik dünya: xaosun kosmos üzərində zəfəri. Bakı: Zərdabi, 2019 /S.Padarov/
- "İstiqlal" toplusu. /Tərtibçi: Ə.Vəliyev/. Bakı, 2020
- Qarabağnamə. /Tərtibçi: Ə.Vəliyev/. Bakı, 2020
- Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz. I cild. Bakı, 2021 /Ə.Vəliyev/
- Nifrət cinayətləri və azərbaycanlılara qarşı nifrət nitqi haqqında hesabat / Report on Hate Crimes and Hate Speech Against Azerbaijanis. Bakı, 2021 /İngilis dilində./ Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə birgə
- Entoni Giddens, Filip V.Satton. Sosiologiyada əsas anlayşlar. (Giddens A., Sutton P. Essential Concepts in Sociology. Second Edition) /İngilis dilindən tərcümə: H.Axundzadə, S.Padarov/. Bakı, 2023
- Qərbi Azərbaycana qayıdış: tarixi torpaqlarda maddi-mədəni irsimiz II cild. Bakı, 2023 /Ə.Vəliyev/
- Leonard Ramsden Hartill. İnsanlar belədir (Men Are Like That) / İngilis dilindən tərcümə: L.Ələkbərova, redaktor: A.Məmmədov. Bakı, 2023
- Mirzə Bala Məmmədzadə və Azərbaycan siyasi düşüncə tarixi. Bakı, 2023 /Ə.Vəliyev/


Tarixi Azərbaycan
torpaqlarında
maddi-mədəni irsimiz
İlham Əliyev


REPORT
ON HATE CRIMES AND HATE
SPEECH AGAINST
AZERBAIJANIS
Commissioner for Human Rights
(Ombudsman)
of the Republic of Azerbaijan


SOSİOLOGİYADA
ƏSAS ANLAYIŞLAR
ENTONİ GİDDENS
FİLİP V. SATTON
2-Cİ NƏŞR


İSTİQLAL
Bakı-2020


TƏDQİQAT
METODLARI
SOSİAL ELMLƏR
VƏ BİZNES ARAŞDIRMALARI
İNQİLAB ŞAHBAZOV
TEAS PRESS


SÜBHAN PADAROV
ENTROPİK
DÜNYA
XAOSUN KOSMOS ÜZƏRİNDƏ ZƏFƏRİ


İNSANLAR
BELƏDİR
Leonard Ramsden Hartill


ƏFQAN VƏLİYEV
MİRZƏ BALA
MƏMMƏDZADƏ
VƏ AZƏRBAYCAN SİYASİ DÜŞÜNCƏ TARİXİ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# STM-in NƏŞRLƏRİ

- "İnam indeksi"
- "Sosial tədqiqatlar"
- "Azərbaycan barometri"
- "Rifah barometri"
- "İslahat barometri"

## "İnam indeksi"

STM yarandığı vaxtdan etibarən Prezidentin daxili və xarici siyasət sahəsindəki fəaliyyəti ilə bağlı ictimai rəy sorğuları keçirir və bunun əsasında təhlil xarakterli analitik hesabatlar, icmal sənədləri təqdim edir. Sorğular Azərbaycanda davamlı aparılması baxımından ilk dəfə olmaqla yanaşı, dünya təcrübəsində "İnam indeksi" kimi məlum olan, dövlət başçılarına ictimai rəydə etibar, dəstək reytinqlərini müəyyən edən tədqiqatlarda tətbiq edilən elmi metodlarla aparılır. Bu silsilədən olan tədqiqatlarda əsas məqsəd ictimai rəydə Prezidentin fəaliyyətinə münasibəti operativ öyrənmək, çevik dəyərləndirmək, rüblük monitorinqlərin nəticələrini müqayisəli təhlil etməklə ictimai rəyin dinamika və tendensiyalarını izləməkdir. "Prezidentin fəaliyyəti ictimai rəydə: İnam indeksi" silsiləsindən 5 illik dövr ərzində 11 sorğu layihəsi həyata keçirilib və buna müvafiq olaraq analitik hesabat və icmal sənədləri hazırlanıb.


İNAM İNDEKSİ / 01
Oktyabr / 2019
STM
"Prezidentin fəaliyyəti ictimai rəydə"
HESABAT
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


İNAM İNDEKSİ 03
iyun / 2020
STM
PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ
ANALİTİK HESABAT
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


İNAM İNDEKSİ 02
MART / 2020
STM
PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ
HESABAT
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


İNAM İNDEKSİ 04
Dekabr / 2020
STM
VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ ALİ BAŞ KOMANDANIN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ
ANALİTİK HESABAT
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


İnam indeksi 06
Noyabr / 2021
PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ
ANALİTİK HESABAT
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


İnam indeksi 05
Yanvar-mart / 2021
STM
PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ
ANALİTİK HESABAT
Zəngəzur
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


İnam indeksi 07
May 2022
Prezidentin fəaliyyəti
ictimai rəydə
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ


İNAM İNDEKSİ
PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ - 2022
2022-ci ilin yekunlarına dair xüsusi buraxılış
SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# “Sosial tədqiqatlar”

STM-in dövri elmi nəşri olan “Sosial tədqiqatlar” jurnalı 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4248 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib. 2021-ci ilin mart ayında mərkəzi Fransanın Paris şəhərində yerləşən Beynəlxalq Serial Nəşrlərin Qeydiyyatı Mərkəzi tərəfindən “Sosial tədqiqatlar” jurnalına Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN 2788-8789 print; ISSN 2959-5223 online) ilə bağlı sertifikat verilib.

“Sosial tədqiqatlar” jurnalı 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) tərəfindən “Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı”na daxil edilib (“Fəlsəfə və sosiologiya”, “Siyasi elmlər, “İqtisad elmləri”, “Tarix və antropologiya” elm sahələri üzrə)

Jurnalda əsasən sosiologiya, psixologiya, iqtisadiyyat, siyasət, hüquq və fəlsəfə kimi ictimai və humanitar elm sahələrinin ümumkonseptual məsələlərini elmi-metodoloji cəhətdən ifadə edən, müəlliflərin yeni ideya və yanaşmalarını əks etdirən elmi-analitik məqalələrin, yeni nəşrlərə dair diskussiya məzmunlu rəy və şərhlərin dərcinə üstünlük verilir. Bu vaxtadək jurnalın 3 sayında Azərbaycan, türk, ingilis və rus dillərində olmaqla 47 elmi məqalə dərc edilib.

Jurnalın ayrıca olaraq iki dildə (Azərbaycan və ingilis) internet (stj.az; https://socialresearchjournal.az/) və Facebook səhifələri fəaliyyət göstərir.









# "Azərbaycan barometri"

"Azərbaycan barometri" jurnalı 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

2019-2023-ci illəri əhatə edən dövrdə "Azərbaycan barometri" jurnalının 22 sayı çap edilib.




# "Rifah barometri"

"Yüksək rifah cəmiyyətinə doğru: qavrayış, qayğı və gözləntilər" adlı analitik sənədin əsas məqsədi rifah cəmiyyəti ilə bağlı dövlətin məsuliyyətinə dair təsəvvür və ümumi qavrayışları öyrənməklə yanaşı, cəmiyyətin cari sosial-iqtisadi qayğı və gözləntilərinin kəmiyyət təsvirinə nail olmaqdan ibarətdir. Postmüharibə dövrünün formalaşdırdığı normativ və gözləntilərin qarşılanması istiqamətində adekvat sosial-iqtisadi siyasət dizaynları üçün qavrayış təhlilləri öz-özlüyündə tarazlıq yaratma funksiyasını da daşıyır. İlkin təhlillər həm də onu göstərir ki, vətəndaşların sosial dövlətin məsuliyyətinə dair təsəvvürləri və ya münasibətləri mövcud qurumların nəticəyönümlü fəaliyyətləri üçün resurs (imkan) və təhdid (təzyiq) rolunu oynayır.




# "İslahat barometri"

"Dayanıqlı məşğulluq çağırışları: gənclərin rəyində" sosioloji sorğu əsasında Azərbaycan əmək bazarının üç əsas problemi üzərindən 18-35 yaşlı respondentlərin (gənclər və yaxud gənc ailə üzvlərinin) rəyi əsasında işsizlik problemi ilə bağlı müvafiq dəyərləndirmələr aparılıb. Sözügedən üç əsas problem aşağıdakılardan ibarətdir: 1) Gənc və ali təhsillilər arasında işsizlik səviyyəsinin yüksək olması; 2) Gənc və bacarıqları iqtisadi transformasiyaya adekvat olmayan insanların əmək bazarından kənarda qalması; 3) Gənclər arasında iş tapmaq ümidini itirənlərin sayının artım tendensiyası və qadınların əmək bazarında iştirakçılığının aşağı səviyyəsi.



SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

# BEYNƏLXALQ TƏDBİRLƏRDƏ İŞTİRAK

STM əməkdaşları Nizamnamə fəaliyyəti çərçivəsində beynəlxalq və respublika səviyyəli tədbirlərdə (elmi-praktiki konfrans, vebinar, seminar və s.) iştirak edirlər.






VII KARABAKH
national Congress On Social Sciences
June 2-4, 2022


CIVIL SOCIETY




RLD OF TODAY: CHALLENGES AND HOPES
March 2023, Baku, Azerbaijan
GLOBAL BAKU FORUM


РОССИЯ СЕГОДНЯ
SPUTNIK
РОССИЯ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# TƏRƏFDAŞLAR, ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ

Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları, xarici qurumlar, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Nizamnaməsinin 3.2.2. bəndinə uyğun olaraq, qısa zaman çərçivəsində STM həm yerli, həm də dünyanın bir sıra nüfuzlu beyin mərkəzləri ilə əlaqələr qurub. Mərkəz fəaliyyətə başladığı ilk gündən beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət qurumları, universitetləri, beyin mərkəzləri və digər təşkilatlarla əməkdaşlıq etmək, onların təcrübəsini öyrənmək və s. məsələləri özünün prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Bu qurumların data-bazalarından istifadə etmək, təcrübə mübadiləsi aparmaq, qarşılıqlı layihələr həyata keçirmək, beynəlxalq aləmdə nüfuzlu beyin mərkəzinə çevrilmək yolunda mühüm addımlar atılıb. Beş illik fəaliyyəti dövründə STM 17 beynəlxalq və yerli qurumla əməkdaşlıq haqqında memorandum imzalayıb.






SETA

ÇANAKKALE ONSEKİZ MART ÜNİVERSİTESİ
• 1992 •




РОСКОНГРЕСС

ВЦИОМ
• Основан в 1987 году •



БИБЛИОТЕКА
ПЕРВОГО ПРЕЗИДЕНТА РЕСПУБЛИКИ
КАЗАХСТАН – ЛИДЕРА НАЦИИ

İRAM
Center for Iranian Studies



HACETTEPE ÜNİVERSİTESİ

ANKARA ÜNİVERSİTESİ
APAM
ASYA-PASİFİK ÇALIŞMALARI UYGULAMA ve ARAŞTIRMA MERKEZİ



ÇANAKKALE SAVAŞLARI ENSTİTÜSÜ




ÜSKÜDAR ÜNİVERSİTESİ
İSTANBUL 2011

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# STM MEDİADA

STM-in Nizamnamə (3.1.13. bəndi) ilə üzərinə düşən vəzifələrindən biri dövlətin siyasətinin mütəmadi şərhini, cəmiyyətə əlçatanlığını təmin etmək, dövlətin müxtəlif sahələrdə gördüyü işlərin əhaliyə çatdırılmasını təşkil etmək və həyata keçirməkdir. Bunu nəzərə alaraq STM-in İdarə Heyətinin üzvləri və müvafiq departamentlərinin əməkdaşları mütəmadi olaraq ölkənin media qurumları tərəfindən ekspert kimi dəvət olunur, həm televiziya və radio efirində, həm də elektron və yazılı media orqanlarında fəal şəkildə çıxış edir, müsahibələr verirlər. STM-in əməkdaşları müxtəlif istiqamətlər üzrə ixtisaslaşdığı üçün fəaliyyət istiqamətləri də müxtəlifdir. Həm STM-in keçirdiyi rəy sorğuları və onların nəticələri, həm də ölkənin sosial, iqtisadi, siyasi həyatından bəhs edilən verilişlərdə Mərkəzin əməkdaşları ekspert kimi çıxış edirlər.

STM əməkdaşlarının müəllifliyi və aparıcılığı ilə müxtəlif sosial-iqtisadi, siyasi-elmi mövzularda Real TV-də “Real tədqiqat”, Füyuzat TV-də “Arxa plan”, İki sahil TV-də “Baxış”, Yeni Azərbaycan TV-də "Sizin həmsöhbət" (Ваш Собеседник) verilişləri hazırlanır və izləyicilərə təqdim edilir.

STM yeni “Qlobal körpülər” (Global Bridges) layihəsini təsis edib, layihə çərçivəsində tanınmış xarici ekspertlər və siyasətçilərdən (Metyu Brayza, Sebastian Şaffer, Pol Qobl, Ceyms Moran, Maksim Qauin, Stiven Payfer) gündəmə dair müsahibələr alınaraq Mərkəzin Youtube kanalında yerləşdirilib. Həmçinin ölkənin bir sıra reytinqli saytlarında önəmli tezislər paylaşılıb.

Beş illik fəaliyyəti dövründə STM əməkdaşları mediada ümumilikdə 9300-dən çox müsahibə verib, çıxışlar ediblər.






baku


atv
xezer
itv




Elnur Çıraqov


itv
atv


политолог


ƏFQAN VƏLİYEV / FƏLSƏFƏ DOKTORU
EVİMİZ ERMƏNİLƏR TƏRƏFİNDƏN
ÇƏ DƏFƏ YANDIRILIB
baku


SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ
Matthew Bryza, Former U.S Ambassador
Pasha Bayramov: SRC Researcher
Is peace possible? Former United States Ambassador answers


Pasha Bayramov
SRC Researcher
Steven Pifer
Former U.S Ambassador
FORMER U.S AMBASSADOR TO UKRAINE ANSWERS
RUSSO-UKRAINIAN WAR, EASTERN EUROPE, SOUTH CAUCASUS
GLOBAL BRIDGES


CANLI
Ailəni boşanma qərarından nə saxlaya bilər?
53.9%
Azyaşlı uşaqların olması
13.0%
1.8%
16.0%
Digər
9.4%
İctimai qınaq
9.9%
Milli və dini ənənələr
13.0%
6.3%
6.5%


НА СТОРОНЕ ЕРЕВАНА: «ДИПЛОМАТИЧЕСКОЕ НАПАДЕНИЕ» ОТ ГОСДЕПА
госсекретаря выступил с необоснованными заявлениями






Yeni tv


CENTER
itv
SOCIAL
Elmin Nuri
ekspert


SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ
AZ TV




FUYUZAT

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# TƏLİM VƏ SEMİNARLAR, TƏCRÜBƏ PROQRAMLARI

Mərkəzin rəhbərliyi tərəfindən sosial tədqiqatlar sahəsində peşəkar mütəxəssislərin hazırlanması, əməkdaşların bilik və bacarıqlarının artırılması, ümumilikdə kadr potensialının inkişaf etdirilməsi məqsədilə vaxtaşırı təlimlər, seminarlar və görüşlər təşkil edilir. Təlimlərin əsas məqədi STM-in Nizamnaməsində nəzərdə tutulan fəaliyyətləri uğurla reallaşdırmaq, əməkdaşların fəaliyyət mexanizmlərini vahid məqsəd istiqamətində birləşdirmək, onların yaradıcılıq potensialını düzgün istiqamətə yönəltməkdən ibarətdir.

Mərkəzdə müasir yanaşmaların tətbiqi, innovativ sorğu üsullarının öyrənilməsi, SurveyToGo tətbiqinin istifadə edilməsi, məlumatların emalı və təhlili istiqamətində istifadə edilən ən müasir data yanaşmanın - SPSS proqramının tətbiqi, layihələrin idarə edilməsi, effektiv və səmərəlilik yanaşmasının üstünlüyü, analitik proqramlarla iş bacarığı, təhlillərin aparılması qaydaları və s. mövzularda təlimlər, təcrübə dərsləri keçirilib.

Bundan başqa, ölkənin bir sıra nüfuzlu ali məktəblərinin tələbələri STM-də təcrübə proqramında iştirak edərək Mərkəz əməkdaşlarının rəhbərliyi ilə müxtəlif elmi mövzularda tədqiqatlar aparır, sorğu metodları və tədqiqat üsulları ilə yaxından tanış olurlar.















SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# STM-in SOSİAL MEDİA PLATFORMALARI

## Facebook, İnstragram, X/Tvitter səhifələri

Hesabat dövrü ərzində Mərkəzin rəsmi Facebook səhifəsində 1860-dan çox, İnstagram səhifəsində 1323, X / Tvitterdə isə 1620-dən çox paylaşım edilib. Youtube kanalında yalnız Mərkəzin fəaliyyəti və keçirilən sorğular və hesabatlar haqqında məlumatlar deyil, eyni zamanda Media və kommunikasiya departamentinin əməkdaşlarının hazırladıqları küçə sorğuları və ayrı-ayrı video-kontentlər (cəmi 569) də yer alıb.









SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## SOSİAL MEDİADA FƏALİYYƏTİN STATİSTİKASI: 2019-2023

| | FACEBOOK | YOUTUBE | INSTAGRAM | TWITTER / X |
|---|---|---|---|---|
| 2019-2021 | 800+ | 342 | 815 | 1000+ |
| 2022 | 651 | 120 | 400 | 470 |
| 2023 | 409 | 107 | 108 | 151 |
| Cəmi | 1860+ | 569 | 1323 | 1621+ |

## STM TV



STM-in onlayn media platformalarından biri olan STM TV-də 602 video yerləşdirilib. STM TV Youtube kanalının 2300-dən çox abunəçisi mövcuddur. Kanalda STM-in tədbirləri, videoqrafikaları, müxtəlif mövzular üzrə videoçarxlar, xarici və yerli ekspertlərlə müxtəlif mövzularda təhlillər, müzakirələr yer alır. STM TV-də sosial, siyasi, iqtisadi proseslərlə bağlı ən aktual mövzular dəyərləndirilir, situativ küçə sorğuları həyata keçirilir.

## STM.az saytı

2019-2023-cü illər ərzində Mərkəzin internet səhifəsində 1500-dən çox material yerləşdirilib.



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# TƏDBİRLƏR, GÖRÜŞLƏR

Beş illik fəaliyyəti dövründə STM-in bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə 70-dən çox beynəlxalq və respublika səviyyəli elmi konfrans, vebinar, seminar və görüş keçirilib, Nizamnamə tələblərindən irəli gələrək gündəmin aktual mövzularında dinləmələr, dəyirmi masalar təşkil edilib.





"Prezidentin sosial və kadr islahatları ictimai rəydə". Konfrans.

24 sentyabr 2019-cu il



Türkiyənin Mərmərə Qrup Fondunun nümayəndə heyəti ilə görüş

29 avqust 2019-cu il





Çin Sosial Elmlər Akademiyasının (ÇSEA-CASS), Siyasi Elmlər İnstitutunun direktoru, Çin Xalq Siyasi Məşvərət Konfransının üzvü, professor Zhang Şuhuanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş.

24 sentyabr 2019-cu il



ADA Universitetində görüş.

25 sentybar  2019-cu il




“Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər”. Konfrans

18 dekabr 2019-cu il



"İkinci Qarabağ müharibəsi ictimai rəydə".
Sorğu nəticələrini təqdimatı

1 oktyabr 2020-ci il




"Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil".
Sorğu layihəsinin təqdimatı.

22 dekabr 2021-ci il




"İnam indeksi" hesabatının 6-cı buraxılışının təqdimatı.

24 dekabr 2021-ci il




ZEFER.az saytının təqdimatı.

21 yanvar 2022-ci il



“Qlobal araşdırmaçı jurnalist və insan hüquqları şəbəkəsinin Azərbaycana qarşı fəaliyyətində erməni faktoru”. Analitik hesabatın təqdimatı

14 fevral 2022-ci il






"Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz: İrəvandan Zəngəzuradək". Kitab  təqdimatı

4 iyul 2022-ci il



Prezident Administrasiyası rəsmiləri ilə görüş

26 iyul 2022-ci il



BMT-də akkreditə olunan xarici KİV nümayəndələri ilə görüş.

1 sentyabr 2022-ci il



“Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu”. Analitik hesabatın təqdimatı

19 oktyabr 2022-ci il



“Böyük millət- güclü dövlət: müasir Azərbaycanın yeni ideoloji xətti”. Dəyirmi masa

26 oktyabr 2022-ci il



Uğurlu mediasiya proseslərinin sosial mühitə müsbət təsiri. Konfrans

21 noyabr 2022-ci il



Vətəndaş Cəmiyyətinin nümayəndələri ilə görüş

30 yanvar 2023-cü il




"Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri". Sorğu nəticələrinin təqdimatı-konfrans

26 aprel 2023-cü il




Türkiyədə prezident seçkiləri - 2023 Azərbaycan ictimai rəyində. Sorğu nəticələrinin təqdimatı

27 aprel 2023-cü il




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə görüş.

3 may 2023-cü il




“Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlər üzrə keyfiyyət və məmnunluğun qiymətləndirilməsi”.
Analitik hesabat təqdimatı

12 iyun 2023-cü il




"Heydər Əliyev və insan hüquqları: qurtuluşdan başlayan inkişaf yolu". Beynəlxalq elmi-praktik konfrans

16 iyun 2023-cü il




"Tikinti sektoru subyektləri arasında vahid müqavilə formalarının tətbiqi və bu sahədə mübahisələrin mediasiya vasitəsi ilə həlli". Konfrans

7 iyul 2023-cü il




"Bank mübahisələrinin uğurlu həlli yollar". Elmi-praktik konfrans

10 iyul 2023-cü il




"Sığorta mübahisələrinin uğurlu həll yolları". Elmi-praktik konfrans

17 iyul 2023-cü il



İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının nümayəndə heyəti ilə görüş.

5 sentyabr 2023-cü il



“Ermənistanın Azərbaycan xalqına qarşı müharibə cinayətləri son 30 ildə". Konfrans.

10 oktyabr 2023-cü il




Azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqi. Konfrans-təqdimat

30 oktyabr 2023-cü il.




Dövlət Miqrasiya Xidmətinin həyata keçirdiyi eletron xidmətlər, elektron sənəd dövriyyəsi və bu sahədə nəzərdə tutulan fəaliyyətlər. Təqdimat

3 noyabr 2023-cü il




"Dağları aşarkən: tarixə doğru irəli - Qərbi Azərbaycana qayıdış: tarixi torpaqlarda maddi-mədəni irsimiz (II cild)". Kitab təqdimatı

6 noyabr 2023-cü il




"Qərbi Azərbaycan yolunda" mövzusunda ictimai dinləmə

28 dekabr 2023-cü il

# TƏBRİKLƏR 5 il

“Sosial Tədqiqatlar Mərkəzinin təsis olunmasının 5 illik yubileyi münasibətilə qurumun rəhbərliyini və bütün kollektivini böyük məmnuniyyətlə təbrik edirəm.

Bu təqvim dövlətimiz və xalqımız üçün əlamətdar bir dövrdə - ərazi bütövlüyümüzün, bütün ölkə ərazisində suverenliyimizin və konstitusiya quruluşunun tam bərpa edildiyi şəraitdə qeyd olunur.

Ötən müddət ərzində Mərkəz ictimai münasibətlərin inkişaf dinamikasının təhlili və bu sahədəki tendensiyaların müəyyənləşdirilməsi istiqamətində məhsuldar fəaliyyət nümayiş etdirmiş və cəmiyyətdə böyük nüfuz qazana bilmişdir. Mərkəz tərəfindən müasir informasiya texnologiyalarının və elmi yanaşmaların tətbiqi ilə ictimai fikrin öyrənilməsi dəyərli məlumat bazası kimi Azərbaycanda həyata keçirilən mütərəqqi sosial siyasət konsepsiyasının səmərəli şəkildə reallaşdırılmasına mühüm töhfədir.

Yubiley münasibətilə STM-in rəhbərliyini bir daha səmimiyyətlə təbrik edir, Mərkəzin işçi heyətinə möhkəm cansağlığı və yeni-yeni fəaliyyət uğurları arzulayıram".

**Əli Hüseynli, millət vəkili,**
***Milli Məclis sədrinin 1-ci müavini***

“Sosial Tədqiqatlar Mərkəzi 5 il öncə yarananda siyasi analitika sahəsində bir çox boşluğun doldurulması aspektindən hər kəsin ümidlə baxdığı bir publik hüquqi şəxs idi. Ancaq qısa müddətdə Mərkəz sanballı bir komanda formalaşdıra bildi, digər tərəfdən ölkənin bütün həyati önəm daşıyan hadisələrinə elmi-konseptual əsaslarla təmas qurdu və hazırladığı analitik materiallar, rəy sorğuları, bütün problemlərin mahiyyətinin öyrənilməsi istiqamətində atılan addımları olduqca böyük ciddiyyətlə qəbul olundu. İndi bu qurumun sənədləri əsasında, ümumiyyətlə, dövlət siyasətinin formalaşması, müəyyən cəmiyyət içi müxtəlif qurumların fəaliyyətinin tənzimlənməsi prosesi daha elmi əsaslarla aparılmağa başlanılıb. STM-in önəmli işləri sırasında Qərbi Azərbaycanda olan abidələrin araşdırılması, onların gələcək üçün vahid bir sənəd formasına salınması, eyni zamanda, ölkənin nəqliyyatı, dini vəziyyəti və digər sosial problemlərini əhatə edə biləcək məsələlər, bank, sığorta sektoru ilə bağlı vətəndaşları narahat edən problemlər ətrafında çox geniş müzakirələrin təşkil olunmasını qeyd etmək olar. Ümid edirəm ki, Mərkəzin gələcəkdə daha böyük işləri qarşımıza çıxacaq. Çünki uğurlu fəaliyyəti buna imkan verir. Elmi potensiallı, savadlı gənclərin buraya toplanması bu qurumun gələcəkdə də Azərbaycanda əhəmiyyətli rol alacağını göstərir. Bu mənada STM-in İdarə Heyətinin sədri, millət vəkili, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Orucun, təbii ki, müstəsna zəhməti var. Çünki birinci şəxsin özünün hazırlıq səviyyəsi və hadisələrə baxışı həm də onun komandasının sağlam əsaslarla formalaşması üçün bir stimuldur. STM Azərbaycan cəmiyyətində araşdırma, tədqiqat mərkəzi kimi böyük bir yükü üzərinə götürüb. Böyük institutların etməli olduğu işləri kiçik bir mərkəzin uğurla etməsi hamı üçün sevindiricidir”.

**Fazil Mustafa,**
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***

“Sosial Tədqiqatlar Mərkəzinin yaranmasının 5 illiyi ilə əlaqədar Mərkəzin rəhbəri hörmətli Zahid Oruc və onun komandasını təbrik edir, fəaliyyətlərində daha böyük uğurlar arzu edirəm. Mərkəz qaşısına qoyulan vəzifələri uğurla yerinə yetirir. Onun ictimaiyyət üçün açıqlanan sorğuları və aparılan araşdırmaları hər zaman diqqət mərkəzində olmaqla, müzakirələrə səbəb olur. Bu uğurlu fəaliyyətdə Zahid Orucun xidmətlərini xüsusi olaraq qeyd etmək istərdim. Mərkəzdə formalaşdırılmış istedadlı komanda və yaradılmış işgüzar mühit, ümid edirəm, onun qarşısında qoyulmuş vəzifələrin bundan sonra da uğurla həyata keçirilməsini təmin edəcəkdir”.

**Qüdrət Həsənquliyev,**
***millət vəkili***

“Vəkillər Kollegiyası adından başda dəyərli Zahid Oruc olmaqla Sosial Tədqiqatlar Mərkəzinin kollektivini təbrik edirəm. Mərkəzin 5 illik fəaliyyəti təqdirəlayiqdir, ölkəmizin tərəqqisi və cəmiyyətimizin maraqları baxımından əvəzedilməzdir”.

**Anar Bağırov,**
***Vəkillər Kollegiyasının sədri***

“Hal-hazırda ictimai münasibətlərin elə bir mərhələsində yaşayırıq ki, cəmiyyətdə baş verən hadisələri proqnozlaşdırmadan, onların trendlərini müəyyən etmədən gələcək inkişafla bağlı əsaslandırılmış mövqe müəyyənləşdirmək olmur. Cəmiyyətin inkişafında yeni keyfiyyət mərhələsinə çatması üçün mütləq təhlillər, analizlər, sintezlər, inkişaf tendensiyasında yaranmış istiqamətlərin məzmunu müəyyənləşdirilməlidir. Bu mənada Sosial Tədqiqatlar Mərkəzinin yaradılması müasir cəmiyyətimizdə yaddaqalan, ən mühüm hadisələrdən biridir. Çünki kimya, fizika, digər elm sahələrində nəyin necə olması ilə bağlı, nəyi etməyin mümkün olması ilə bağlı təhlillər, analizlər, şübhəsiz ki, laboratoriyalarda aparılır. Cəmiyyəti bir laboratoriyaya sıxışdırıb onun inkişaf meyillərini, keyfiyyətini təhlil etmək olmur. Bunu yalnız onu təşkil edən ayrı-ayrı şəxslərin mövqeyi, fikirləri ilə müəyyənləşdirmək mümkündür ki, əslində STM də bunu həyata keçirir. İstər cəmiyyətin siyasi sisteminin formalaşması, istər iqtisadi, istər ailə-məişət münasibətləri ilə bağlı olsun, yəni cəmiyyətin bütün sosial, siyasi institutlarının gələcək fəaliyyətinin səmərəli şəkildə təşkil olunmasında STM-in həyata keçirdiyi sorğular, onların nəticələrinin təhlil olunması, düzgün qərar qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Düşünürəm ki, fəaliyyət göstərdiyi 5 il müddətində Sosial Tədqiqatlar Mərkəzi bu vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacarıb, öz sədrinin təşkilatçılığı altında yaxşı bir kadr komplektləşməsi əldə edə bilib. Bu da bundan sonra Azərbaycan cəmiyyətinin inkişafı üçün elmi əsaslarda yeni xidmət sahəsinin formalaşmasına gətirib çıxarıb. Mən başda hörmətli həmkarım Zahid Oruc olmaqla, STM-in kollektivini ürəkdən təbrik edirəm, bu sosial, strateji əhəmiyyətli fəaliyyətlərində uğurlar arzu edirəm”.

**Hikmət Babaoğlu,**
***millət vəkili***

“Sosial Tədqiqatlar Mərkəzinin yaradılmasından 5 il ötür. Bu münasibətlə Mərkəzin rəhbərliyini və kollektivini səmimi qəlbdən təbrik edirəm. Hesab edirəm ki, STM 5 ildə böyük inkişaf yolu keçib. Bu müddət ərzində Mərkəz bir çox istiqamətdə hesabatlar hazırlayıb və eyni zamanda sosial problemlərin araşdırılması istiqamətində uğurlu layihələr icra edilib, dövlətə vacib təkliflər verilib. Mərkəzin çoxşaxəli uğurlu layihələri olub, mənim diqqətimi ən çox çəkən isə Qərbi Azərbaycanla bağlı görülən işlərdir. Bu məsələ ilə bağlı STM mühüm tədqiqatlar ortaya qoyub, tədbirlər keçirib. Azərbaycandakı dini durumla bağlı da STM vacib tədqiqatlar apararaq dövlətə təqdim edib. STM bir çox sahədə çox uğurlu işlər görür və bu işlərə ciddi ehtiyac var. Mən STM-in rəhbəri Zahid Orucu, eyni zamanda bütün kollektivi səmimi qəlbdən təbrik edirəm. Ölkəmiz yeni bir mərhələyə daxil olur, bu mərhələdə daha çox çalışmalıyıq. STM bundan sonra da mühüm uğurlara imza atacaq”.

***Ceyhun Məmmədov,***
***millət vəkili***

"STM-in fəaliyyətini davamlı izləyənlər aydın görürlər ki, bu qurum son 5 ildə təkcə sosial dinamikanın izlənilməsi, ictimai rəyin öyrənilməsi və problemlərin araşdırılması ilə kifayətlənməyib. Üzdə olmayan, amma ölkənin gələcəyinə mənfi təsir göstərən meyillərin üzə çıxarılması, sosial proqramların hazırlanmasında da üzərinə düşən vəzifəni uğurla yerinə yetirib. Ona görə də dəyərli Zahid Oruc başda olmaqla STM-in bütün üzvlərini qurumun yaradılmasının 5 illiyi ilə bağlı ürəkdən təbrik edir, qarşıdakı 5 ildə Azərbaycanda baş verəcək böyük dəyişikliklərə böyük töhfə vermələrini arzulayıram!"

**Sahib Alıyev,**
***millət vəkili***

“Sosial Tədqiqatlar Mərkəzinin 5 yaşı cəmiyyət həyatında ictimai fikrin öyrənilməsi və müvafiq reaksiyaların formalaşdırılması baxımından zamanında atılmış addımdır.

Məhz STM-in fəaliyyəti mən deyərdim ki sosial barometr kimi dəyərləndirilə bilər. Sizə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün apardığınız araşdırmaların davamını arzulayıram. 5 yaşınız bol-bol ugur gətirsin!”

**Müşfiq Məmmədli,**
***millət vəkili***

“Sosial Tədqiqatlar Mərkəzi ölkənin ictimai münasibətlər sistemini, sosial institutlarını araşdıran və təhlil edən əsas təşkilatlardan biridir. Qısa zaman ərzində fəaliyyət göstərməsinə baxmayaraq Mərkəz çoxsaylı hesabatlar, ictimai təhlillər və analitik təhlillərlə yadda qalıb. Əsas məqam ondan ibarətdir ki, Mərkəz hazırladığı hesabatlara yalnız siyasi, iqtisadi, sosial baxımdan deyil, həmçinin elmi yanaşır. Bu cür təhlillər isə birbaşa cəmiyyətlə işləyən, ictimai sferada çalışan müvafiq qurumlara da keyfiyyətli və peşəkar iş ortaya qoymağa, həmçinin görülən işlərin sosial effektivlik səviyyəsini öyrənməyə və mövcud problemləri araşdırıb konkret addımlar atmağa kömək edir. Odur ki, 5 yaşı tamam olan STM-i təbrik edir və ictimai-siyasi fəaliyyətində daha böyük müvəffəqiyyətlər arzulayıram".

**Rövşən Məmmədov,**
***Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri***

“Belə zənn etmək dəbdədir ki, Şərq və Qərb düşüncə tərzi ciddi şəkildə fərqlənir. Şərq daha çox poetikaya, arzuların dinamikasına bel bağlayır, ona görə də burada riyazi yox, ədəbi qənaətlər daha çox populyardır. Şərqdə, onun bir hissəsi  olan Azərbaycanda da yazıçıların, şairlərin etibarı ziyalı modelinin əsasını təşkil edib. “Beyin mərkəzi” ifadəsi bizim üçün ensiklopedik bilik sahibi Nizami Gəncəviyə istinad idi, haqlı olaraq Nəsimini mütəfəkkir hesab etmişik. Bu günlərdə 5 yaşını qeyd edən Sosial Tədqiqatlar Mərkəzi haqqında danışmaq isə həm də köhnə fikir texnologiyalarının, şüur alətlərinin müasir düşüncə sisteminə transformasiyası haqqında danışmaqdır. Bu baxımdan STM kollektiv fikirləşmək, ortaq düşüncə yaratmaq baxımından olduqca vacib mexanizmdir. Bura daxil olan informasiyalar, ayrı-ayrı şəxslərin beyin məhsulları bir mərkəzə toplanır və cəmiyyət həyatının gələcəyinə proqnozlar sistemi kimi daxil olur. Sosial Tədqiqatlar Mərkəzinin 5 yaşını təbrik edirəm. Bu, bizim adi hesablarımıza görə 5 yaşdır, bəs əslində neçə yaşı var bu Mərkəzin?! Bax bu suala cavabın ən düzünü Zahid Oruc başda olmaqla Mərkəzdə çalışan peşəkarlar bilir”.

**Mirşahin Ağayev,**
***“Real Təhlil İnformasiya Mərkəzi”***
***Məhdud Məsuliyyətli Cəmiyyətin sədri***

“Sosial Tədqiqatlar Mərkəzi həyatımıza ölkəmizdə baş verən prosesləri, dövlətimiz və vətəndaşlarımız arasında qarşılıqlı münasibətlərin dinamikasını, ictimai-siyasi, sosial, elmi-mədəni sahələrdə gedən prosesləri və hadisələri, təmayülləri təhlil edən, proqnozlaşdıran intellektual mərkəz kimi daxil olub. Öz sıralarında – həm aparatında, həm də daimi əlaqədə olduğu ekspertlər kimi analitikləri, siyasi şərhçiləri, sosioloqlar birləşdirən bu vacib Mərkəzin fəaliyyətinin bir görünən tərəfi vardır ki, bu da hamımızın bildiyi, hamı üçün açıq olan müsahibə, rəy, sorğu, məqalə və araşdırmalarda əksini tapır, bir də ehtimal edirəm ki, görünməyən tərəfi vardır, bu isə xüsusi qrifli, məxsusi hazırlanmış arayışlarıdır. Şübhəsiz ki, Mərkəz fəaliyyətinin hər iki tərəfi ilə qiymətlidir. Bunu Mərkəzin fəaliyyətə başladığı müddət ərzində ölkəmizin həyatında baş verən çox vacib hadisələrin fonunda əminliklə demək olar. Bu gün Sosial Tədqiqatlar Mərkəzi 5 yaşını qeyd edir. Mən Mərkəzin bütün kollektivini, əməkdaşlarını səmimiyyətlə təbrik edirəm, gələcək fəaliyyətlərində onlara yorulmazlıq arzu edirəm. Eyni zamanda sevinirəm ki, Mərkəzin rəhbərliyində, işçiləri arasında şəxsən tanıdığım, fəaliyyətlərini yüksək qiymətləndirdiyim hörmətli millət vəkili Zahid Oruc, dostum Tural ismayılov və Əziz Əlibəyli də var".

**Səlim Babullaoğlu,**
***Azərbaycan Yazıçılar Birliyinin katibi***

“Azerbaycan Sosyal Tetkikatlar Merkezinin 5. Kuruluş Yıldönümünü gönülden tebrik ediyor ve çalışmalarında başarılar diliyorum.

Türkiye ve Azerbaycan, kardeşliklerini “iki devlet tek millet” yaklaşımıyla her geçen gün güçlendirmektedir. Bu ifadenin hoş bir sözden ibaret olmadığı, son olaraq işgal altındakı Azerbaycan topraklarının kurtarılmasıyla tekrar dünyaya ilan edilmiştir.

Siyasi, askeri ve ekonomik işbirliğimizi kuvvetlendirirken, üklelerimiz için milli güvenlik meselesi haline gelen iletişim ve dezenformasyonla mücadele alanlarında güçlerimizi birleştiriyoruz. Bu itibarla, kudretli liderlerimizin tensip ve destekleriyle hayata geçen Türkiye Azerbaycan Ortak Medya Platformunun hakikat mücadelemize böyük katkılar sunacağına inanıyorum.

Konuyla ilgili mutabakat zaptının onaylanması sürecinde bu davaya desteğini en açık biçimde gösteren Sayın Zahid Oruçun şahsında tüm Azerbaycanlı kardeşlerimizi selamlıyor, bir kez daha “Karabağ Azerbaycandır!” diyorum”.

**Prof. Dr. Fahrettin Altun,**
***T.C. Cumhurbaşkanlığı İletişim Başkanı***

“Azerbaycan Sosyal Tetkikatlar Merkezi'nin 5'inci kuruluş yıl dönümünü yürekten kutluyor, bundan sonraki çalışmalarında başarılar diliyorum. Her zaman ortaya koyduğu önemli araştırma ve çalışmalarla devlete önemli hizmetler ve katkılar sağlamaya devam edeceğini umuyorum”.

**Selçuk Bayraktar,**
***Baykar Yönetim Kurulu Başkanı / Teknoloji Lideri (CTO) ve***
***T3 Vakfı Mütevelli Heyeti Başkanı***

“Azerbaycan Sosyal Tetkikatlar Merkezi'nin kuruluşunun Beşinci yılını yürekten kutluyor, faaliyetinin devamlı olmasını diliyorum”.

**Mahir Ünal,**
***AK Parti Merkez Karar Yönetim Kurulu Üyesi***

**“Sayın Zahid Oruç,**
**Azerbaycan Sosyal Tetkikatlar Merkezi Yönetim Kurulu Başkanı**

Azerbaycan'ın önemli düşünce ve araştırma merkezlerinden olan, ulusal ve uluslararası alanlarda çalışmalar yapan Azerbaycan Sosyal Tetkikatlar Merkezi'nin 5. Kuruluş Yıl Dönümünü yürekten kutluyorum. Çalışmalarınızda başarlarınızın devamı dileğiylə, Şahsınızda değerli katılımcılara selam və saygılarımı sunuyorum”.

**Şamil Ayrım,**
***AK Parti istanbul Milletvekili,***
***Turkiye-Azerbaycan Parlamentolararası Dostluk Grubu Başkanı***

"Azerbaycan`ın önemli araştırma kuruluşlarından olan Sosyal Tetkikatlar Merkezi`nin 5. Kuruluş Yıldönümünü en içten dileklerimle kutlar, çalışmalarında başarılar dilerim".

**Prof. Dr. Burhanettin Duran,**
***SETA Vakfı Genel Koordinatörü***

"Kuruluşunun 5. Yıldönümü vesilesiyle dost ve kardeş ülke Azerbaycan`ın gelişimine sağladığı çalışmalarla göz dolduran Azerbaycan Sosyal Tetkikatlar Merkezine katkı sağlayan herkese teşekkür ediyor, çalışmaların Türklüğün müasir medeniyyetler seviyesine ulaşma amacına hizmet edeceğine olan inancımla emeği geçenleri kutluyor, başarılar diliyorum".

**Prof. Dr. Kamil Aydın,**
***Milliyetçi Hareket Partisi Türk dünyası ve uluslararası ilişkilerden sorumlu genel başkan yardımçısı***

"Azerbaycan Sosyal Tetkikatlar Merkezinin beşinci kuruluş yıldönümünü en kalbi hissiyatımla kutlarım. Muhterem Zahid Oruc Bey'in idaresindeki Merkez'in calışmaları sadece Azerbaycan için değil, tum Türk Dünyası için çok ehemiyyetlidir. 19 senedir diplomasi, calışma bölgeleri ve barış calışmaları sahasında eğitim ve araştırmalar yapan Divan Araştırma ve Eğitim Derneği ve Diplomasi Akademisi olarak gelecek dönemlerde STM ile iş birliği yapmak ve bölgemize ve Türk Dünyası'na fikri hizmetler yapmak bizi mutlu edecekdir. STM'nin beşinci kuruluş yıldonumunu tebrik eder, Merkez'in başarılı calışmalar yapmasını dilerim".

**Dr. Alptekin Cihangir İşbilir,**
***Divan Araştırma ve Eğitim Derneğinin Başkanı***

"Can Azerbaycan'da Sosyal Tetkikatlar Merkezinin kuruluşunun 5. Yılı münasebetiyle başta şahsınız olmak üzere tüm merkez çalışanlarını, emektaşlarını canı gönülden tebrik ederim, Merkezin, Azerbaycan'ın inkişafı, güvenliği ve bakası için vermiş olduğu düşünce özverili mücadelesi, çalışması ve faaliyetleri takdirle karşılanmaktadır. Allah Azerbaycan devletimizi korusun ve yüceltsin".

**Dr. Şemsettin Küzeci,**
***Araştırmacı, Gazeteci, Yazar Kerkük Kültür Derneği Başkanı***

"Can Azerbaycan'ın kıymetli müesseselerinden Sosyal Tetkikatlar Merkezi'nin kuruluşunun 5. Yıldönümünü içtenlikle tebrik ediyorum. Bu güzide müessesenin, araştırmaları, analizleri ve projeleriyle Azerbaycan devleti ve kardeş Azerbaycan halkının ekonomik, sosyal ve bilimsel alanlarda kalkınması, dünya devletleri arasında daha da önemli konumlara yükselmesinde önemli rol oynayacağına yürekten inanıyorum".

**Kemal KAPTANER,**
***DEİK Kurumsal İletişim Direktörü***

“Fokus+ medya grubu olarak Sosyal Tetkikatlar Merkezi'nin 5. yılını yürekten tebrik ediyoruz. Zahid beyin yönetimindeki kurum beş yılda büyük başarılara imza atarak Azerbaycan'ın araştırma alanındaki büyük bir eksiğini gidermiş oldu. İnanıyoruz ki Azerbaycan STM ile, STM de Azerbaycan'la birlikte büyüyecek.

Nice 5 yıllara...”

**Ahmed Yusuf,**
***Focus+ Medya Grubu Kurucusu- Genel Yayın Yönetmeni***

"Kardeş ülkenin Sosyal Tetkikatlar Merkezi'nin sosyal araştırma ve bilimsel çalışma alanlarındakı faaliyetlerini çok takdir ediyor ve başarılarından gurur duyuyoruz. Böyle bir kurumun Azerbaycan'da faaliyet göstermesi son derece memnuniyet verici ve gurur vericidir. Kuruluşunun 5'inci yılında Sosyal Tetkikatlar Merkezi'ne faaliyetinde başarılar diliyorum".

**Hakan Bayrakçı,**
***Sonor Araştırma Şirketi Başkanı***

"Sayın Cumhurbaşkanımızın emriyle 2019 yılında Azerbaycan'da Sosyal Araştırmalar Merkezi kuruldu. Merkez 5 yıl boyunca kendi alanında çok başarılı faaliyet gösterdi. STM, Azerbaycan'da ve uluslararası ilişkiler sisteminde ortak siyasi, sosyolojik araştırmalar ve bilimsel çalışmalar yaparak ciddi bir biçimde tanındı. Azerbaycan'da ve Türkiye'de STM'ye ve onun araştırmalarına büyük önem veriliyor. STM-nin anket ve kamuoyu yoklama çalışmaları Azerbaycan'da kamuoyu oluşumuna yaptığı katkıyla dikkat çekti. Böyle bir Merkezin varlığı devlet-millet ilişkileri açısından son derece önemlidir. STM'nin önümüzdeki yıllarda Azerbaycan'ın örnek merkezlerinden biri olacağına inanıyorum."

**Yücel Karauz,**
***General (Türkiye)***

“Azerbaycan için önəmli çalışmaların yapılmasına vesile olmuş Azerbaycan Sosyal Tetkikatlar Merkezini kuruluşunun 5. Yıldönümü vesilesiyle kutluyor, çalışmalarınızda başarılar diliyorum”.

**Cafer Vayni,**
***Telif Hakları Derneği Başkanı***

“Azerbaycan ve Türk Dünyası için fevkalade mühim sosyal aratırmlar yapılmasına vesile olan Azerbaycan Sosyal Tedkikatlar Merkezinin beşinci kuruluş yıldönümünü en içten dileklerimle kutluyor, çalışmalarınızda üstün başarılar, Türkiye ve Azerbaycan arasındaki dostluk ve kardeşliğin ebediyete kadar sürmesini diliyorum”.

**Prof. Dr. Yunus Koç,**
***Hacettepe Üniversitesi Türkiyat Araştırmaları Ensitüsü***

“İçtimai araştırmalar, toplumlar için fenni araştırmalar kadar hatta ondan daha önemlidir. Bir ülkenin topyekun kalkınmışlığını temin eden vasatı, içtimai şartlar temin eder. Azerbaycan Sosyal Tedkikatlar Merkezi, beş yıl gibi kısa bir sürede, Azerbaycan'ın cemiyet yapısında ve Türk dünyası alakalarında ciddi bir bilgi birikimi ve şuur oluşturmayı başarabilmiştir. Karabağ savaşında Azerbaycan Türkleri başta olmak üzere, Türkiye ve Türk dünyasında bu şekilde yaratılan yüksek şuurun muvaffakiyetin elde edilmesinde payı büyüktür. Bu vesile ile merkezin beşinci kuruluş yıl dönümünü yürekten kutlarım”.

**Prof. Dr. Abdullah Gündoğdu,**
***Ankara Üniversitesi***

“Azerbaycan Sosyal Tetkikatlar Merkezi onun değerli ve saygıdeğer başkanı Zahid Oruc yönetiminde kurulduğu 5 yılda önemli başarılara imza atmıştır. Sosyal Tetkikatlar Merkezi Azerbaycan Türkiye ilişkilerinin daha da pekiştirilmesi anlamında önemli projeler ve çalışmalar yapmıştır. Kuruluşunun 5-ci yılında Sosyal Tetkikatlar Merkezi yönetimini ve çalışanlarını kutlar, çalışmalarında başarılar dilerim”.

**Prof. Dr. Yıldız Deveci Bozkuş,**
***Ankara Üniversitesi***

“Sosyal Tedkikatlar Merkezi (STM) Zahid Oruc beyin liderliğinde kurulduğu günden bu yana yaptıkları araştırmalarla Azerbaycan'a önemli katkılar sağlamıştır. Kardeş ülke STM ile son 5 yıldır önünü daha net görüyor. Bu vesile ile Merkezin 5. kuruluş yıldönümünü kutlar, merkez başkanı Zahid bey ve çalışanların başarılarının devamını dilerim”.

**Doç. Dr. İbrahim Karataş**

“Sosial Tədqiqatlar Mərkəzi ictimai münasibətlərin inkişaf dinamikasının öyrənilməsi, bu sahədə tendensiyaların müəyyən edilməsi və dəyişikliklərin proqnozlaşdırılması, həmçinin müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai rəyin araşdırılması ilə bağlı uğurlu tədqiqatlar həyata keçirir. Mərkəz bu çərçivədə Roskonqres Fondu ilə əlaqələri dəstəkləyir. Fondun əsas fəaliyyət istiqamətləri üzrə Mərkəzlə əməkdaşlıq olduqca əhəmiyyətlidir. STM kollektivini yaradılmasının 5 illiyi ilə əlaqədar təbrik edir, tükənməz yaradıcı enerji və fəaliyyət planlarının uğurlu icrasını arzu edirəm”.

**Qriqori Velikix,**
***Roskonqres Fondunun direktor müavini***

“Yaradılmasından cəmi 5 il keçməsinə baxmayaraq, Sosial Tədqiqatlar Mərkəzi ötən müddət ərzində Azərbaycanda sosial tədqiqat, təhlil, proqnozlaşdırma, eləcə də ictimai rəyin öyrənilməsi sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Təsadüfi deyildir ki, BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı nümayəndəliyi də Mərkəzin bu potensialından istifadə etmək imkanına malik olmuş, təşkilatlarımız arasında qısa zaman kəsiyində səmərəli əməkdaşlıq münasibətləri formalaşmışdır. Belə ki, UNFPA-nın ölkə nümayəndəliyinin həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Mərkəzin çeşidli auditoriyalar üzrə apardığı rəy sorğuları layihələrimizin uğurlu icrasına töhfə vermişdir. Ümidvaram ki, əməkldaşlığımız bundan sonra da müvəffəqiyyətlə davam edəcək. STM rəhbərliyini və heyətini Mərkəzin qurulmasının 5-ci ildönümü kimi əlamətdar hadisə münasibətilə təbrik edir, ən yüksək ehtiramımı diqqətinizə ərz edirəm”.

**Fərid Babayev,**
***BMT Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri***

“Azərbaycan XX əsrin əvvəlində nəinki bütün müsəlman Şərqinin, o cümlədən dünyanın mütərəqqi dövlətlərindən biri idi. Müstəqilliyin bərpasından sonra fövqəladə tarixi şəraitdə müharibə, ərazilərinin işğalı, vətəndaşlarının geniş miqyasda məcburi köçkün düşməsi faktı ilə üzləşməklə, həmçinin 90-cı illərin iqtisadi restrukturlaşma dövründən keçən Azərbaycan bu gün müasir iqtisadi və hərbi potensiala malik bir dövlətə çevrilmişdir. Hazırkı dövrdə əsas problemlər, müharibədə qazanılmış qalibiyyət fonunda ölkənin qarşısında strateji yol, o cümlədən institusional və cəmiyyət inkişafı, digər tərəfdən insan resurslarının düzgün idarə edilməsi baxımından da prioritetlər dayanır.

Azərbaycanda önəmli fəaliyyətlər həyata keçirən qurumlardan biri, araşdırmalar sahəsində ixtisaslaşan və 5 illiyini qeyd edən Sosial Tədqiqatlar Mərkəzinə davamlı uğurlar və cəmiyyət üçün faydalı işlərində yeni nailiyyətlər arzu edirəm”.

**Fabio Qrassi,**
***Roma Sapineza Universitetinin professoru***



**ПРЕЗИДЕНТСКИЙ ЦЕНТР РЕСПУБЛИКИ КАЗАХСТАН**

*Уважаемые господин Захид Орудж*
*и коллектив Центра социальных исследований!*

*От имени Президентского центра Республики Казахстан примите сердечные поздравления в связи с пятилетием Центра социальных исследований!*

*За столь небольшой отрезок времени ЦСИ удалось добиться серьезных успехов в области социальных исследований, анализа и прогнозирования.*

*Вы вносите значительный теоретический и практический вклад в инновационное развитие и конкурентоспособность Азербайджанской Республики.*

*Сегодня Ваш Центр является современной исследовательской организацией общегосударственного и общественного значения со всеми присущими ей качествами: широким спектром направлений деятельности, высококвалифицированным кадровым составом, современными аналитическими технологиями и программами, стремительным развитием и большими перспективами.*

*Хочу пожелать коллективу Центра социальных исследований процветания, больших творческих достижений, смелых начинаний и новых открытий, а также успехов в реализации важнейших проектов, отвечающих запросам государства, общества и гражданина.*

*Выражаю уверенность в сохранении сложившихся партнёрских отношений и надеюсь на дальнейшее плодотворное сотрудничество наших организаций.*

**Заместитель директора** **Б. Каипова**

TÜSAD

Kıbrıs Türk Stratejik Araştırmalar ve Düşünce Merkezi

## KUTLAMA

Azerbaycan'ın değerli kuruluşlarından olan Sosial Tədqiqatlar Mərkəzi'nin Beşinci Kuruluş Yıldönümünü en içten dileklerimle kutlarım.

Birçok başarıya imza atmış, tüm Türk dünyası üzerinde kıymetli çalışmaları bulunan Merkez faaliyetlerini, kardeş ülke olan Kuzey Kıbrıs'tan takip etmekteyiz. Bu vesile ile idareci Muhterem Zahid Oruc Bey'i ve ekip arkadaşlarını tebrik eder, nice kıymetli çalışmalarda buluşmak üzere sevgi ve saygılarımı sunarım.

**Özkul HARAÇ**

GENEL KOORDİNATÖR

tüsadkibris tüsadkibris.org

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az